# İbrahim YUSİFOĞLU-70



Hörmətli İbrahim Yusifoğlu!

Sizi - Azərbaycan Yazıçılar və Jurnalistlər birliyinin üzvünü, "Qızıl Qələm" media mükafatı laureatını, Prezident təqaüdçüsünü, Respublikanın Qabaqcıl Təhsil İşçisini anadan olmanızın 70 illik yubileyi münasibətilə təbrik edirik.

Siz 30 sentyabr 1954-cü ildə Naxçıvan MR-in, Şərur rayonunun Axura kəndində anadan olmuş, kənd məktəbini tərifnamə ilə bitirmiş, Naxçıvan şəhərindəki pedaqoji məktəbdə təhsil almış, daha sonra təhsilinizi Naxçıvan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində davam etdirmisiniz. Ömrünüzün 50 illik dövrünü təhsil sahəsində keçirmisiniz.

Sizin ilk mətbuat yazınız 1968-ci ildə, ilk şeiriniz isə 1971-ci ildə Şərur rayonunda dərc olunan "İşıqlı yol" qəzetində çap edilmiş, bu günədək yüzlərlə məqalə və oçerkləriniz respublika mətbuatında dərc olnumşdur.

"Araz bayatıları" adlı ilk şeirlər kitabınız "Yazıçı" nəşriyyatında (1991) nəşr olunmuş və bu günədək 34 adda bədii kitabınız işıq üzü görmüşdür. Bu kitablarda Vətənə məhəbbət, anaya olan sevgi, müəllim əməyinin müqəddəsliyi, uşaq dünyasının əlvanlığı poetik dillə tərənnüm olunmuşdur.

Sizin uşaqlara həsr etdiyiniz 6 adda kitabınız, Azərbaycan Yazıçılar Birliyinin tərtib etdiyi "Azərbaycan Uşaq Ədəbiyyatı antologiyası" (2015), Mədəniyyət Nazirliyinin sifarişi ilə çap olunan 2 cildli "Azərbaycan Uşaq ədəbiyyatı antologiyası" (2016), Təhsil Nazirliyinin əmri ilə təsdiq edilmiş "Müntəxabat" dərsliyində verilən silsilə şeirləriniz uşaq ədəbiyyatının zənginləşməsinə xidmət edir. 2020-ci ildə "Payızda üşüyən çiçək" adlı uşaqlar üçün şeirlər kitabınız "Xüdafərin" nəşriyyatında əski əlifba ilə Cənubi Azərbaycanda yaşayan körpə balalara hədiyyə edilmişdir.

Siz rəsmi nümayəndə heyətinin, tərkibində Türkiyə Respubikasında (2000), İran İslam Respublikasında (1995, 2001, 2008), Özbəkistan Respublikasında (2020) beynəlxalq konfransların və poeziya bayramlarının iştirakçısı olmusunuz, diplomlara və qiymətli hədiyyələrə layiq görülmüsünüz.

Əsərləriniz fransız, rus, türk, fars və özbək dillərinə tərcümə olunmuş, toplularda, antologiyalarda, jurnal və qəzet səhifələrində dərc olunmuşdur.

Azərbaycan Yazıçılar Birliyinin, Təhsil Nazirliyinin, Pedaqoji Cəmiyyətin qurultaylarının nümayəndəsi olmusunuz.

50 ilə yaxın Şərur rayonunda fəaliyyət göstərən "Şərur" ("Şərur qönçələri") ədəbi birliyinin üzvü və rəhbəri olmuş, onlarla kitabın redaktoru, tərtibçisi və ön sözünün müəllisifiniz.

Naxçıvan MR Radio və Televiziya Şirkətinin sifarişi ilə haqqınızda "Dağların şair oğlu" adlı film çəkilmiş, lirik şeirlərinizə mahnılar bəstələnmişdir. Bu günlərdə nəşr olunan "Ömür dastanının boyları" toplusunda onlarla tanınmış ədəbiyyat adamlarının yaradıcılığınız haqqında yazdıqları ürək sözləri və şeirlər yer almışdır.

Hörmətli İbrahim Yusifoğlu, Siz hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı kimi əmək fəaliyyətinizi davam etdirirsiniz. Sizi 70 illik yubileyiniz münasibəti ilə təbrik edir, cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**
**Naxçıvan Yazıçılar Birliyi**